**AZƏRBAYCAN RESPUBLKASI TƏHSİL NAZİRLİYİ**

**BAKI DÖVLƏT UNİVERSİTETİ**

**AZƏRBAYCAN COĞRAFİYASI VƏ COĞRAFİYANIN TƏDRİSİ METODİKASI KAFEDRASI**

**COĞRAFİYA MÜƏLLİMLİYİ İXTİSASI**

**III kurs**

# COĞRAFİYANIN TƏDRİSİ METODİKASININ NƏZƏRİ ƏSASLARI

**fənni üzrə proqram**

"Coğrafiya tədrisinin nəzəri əsasları"fənni üzrə proqram BDU-nun Coğrafiya fakultəsinin Elmi Şurasının ......2023-cü il tarixli .......protokoluna əsasən təsdiq edilmişdir.

**Bakı 2023**

**Tərtib edənlər: dos. N. S. Seyfullayeva**

**N. Qocayeva**

Rəy verənlər:

1. ADPU-nun Coğrafiya fakultəsi, Azərbaycan coğrafiyası və Coğrafiyanın Tədrisi Texnologiyası kafedrasının müəllimi Qabil Səmədov
2.

**Giriş**

XXI əsrin birinci iyirmiilliyi insan həyatının bütün sahələrində kəskin qlobal və köklü dəyişikliklərlə müşayət olunur. Dəyişən cəmiyyətin qarşısında bu proseslərə uyğunlaşmaq tələbi qoyulur. Əks halda yeni gələn nəsillər dövrün tələblərini mənimsəyə bilməyəcəkdir. Bunun üçün təhsli sistemində mühüm dəyişiklərin olması zəruridir. Dəyişiklik ilk növbədə hafizə məktəbindən təfəkkür məktəbinə keçid ilə ifadə olunur. Çünki, müasir texnologiya dövrünün yetirmələrinin maraq və ehtiyacları fərqlidir. Məhz bu baxımdan təhsilverənlərin özlərini inkişaf etdirməsi labüddür. Digər mühüm dəyişiklik fərdi təlimdən kollektiv təlimə keçidi təmin etməkdir. Uzun illər iş prosesində fərdi təlimə uyğunlaşmış təhsilverənlərin kollektiv (qrup) təlimə keçidi mühüm problemlərlə qarşılanır. Müəllim- şagird münasibətlərinə verilən yeni tələblər də keçid dövrünün yaratdığı problemlərdən biridir. Öyrənmə və öyrətmə prosesində dünyada mövcud olan yenilikləri mənimsəmək üçün müəllimlərin təhsilinin yenidən hazırlanması vacibdir. Lakin, ilk növbədə müəllimlik ixtisasını seçən tələbələr dünyada mövcud olan son pedaqoji yeniliklər öyrədilməlidir. Bu baxımdan təqdim olunan coğrafiya tədrisi metodikası proqramı əvvəlkilərdən xeyli fərqlənir.

**I.<u>Fənnin təsviri:</u>**

Ənənəvi olaraq təlimin keçmış nəsillərin təcrübəsinin gənc nəslə ötürülməsi prosesi kimi qəbul edilməsi təkrarçılıq olsa da müəyyən bir sistemin olduğunu göstərirdi. Hazırda təlimə olan münasibət dəyişərək və yeni yanaşma tələb edir. Dünyada mövcud olan yeni təlim metodlarının pedaqoji ixtisas seçmiş tələbələrə öyrədilməsi yaxın gələcək təlim prosesində mühüm dəyişiklərin olacağına əminlik yaradır. Ali məktəblərdə coğrafiya müəllimləri ixtisasında tədris edilməsi nəzərdə tutulan “Coğrafiya tədrisinin nəzəri əsasları ” kursu tələbələrə fənnin tədrisinin nəzəri bazasını yaratmağa hədəflənmişdir. Kursun məzmununda ümumiyyətlə metodika elminin mahiyyəti, tədqiqat metodları, ənənəvi fənn proqramından nəticəyönümlü təlimə keçid, tədris prosesinin pedaqoji-psixoloji əsaslarına dair müxtəlif nəzəriyyələrin təhlili, fənn kurikulumunun mahiyyəti, öyrənmə mühütinin yaradılmasına verilən tələblər. müəllim şagird münasibətlərində yeni yanaşma, tədris ədəbiyyatına verilən yeni tələblər, fənn üzrə əyani vəsaitlərin əhəmiyyəti və s mövzular öyrədilir.

**II. <u>Ümumi kompetensiyalar (ÜK):</u>**

UK-1 –coğrafiyanın tədrisinin nəzəri əsaslarının öyrənilməsinin vacibliyini əsaslandırması;
UK-2 –coğrafiya tədrisinin nəzəri əsaslarını təhlil etdiyi istiqamətlərin müəyyən edilməsi;
UK-3 –kursun tədris olunmasında müəllim-tələbə fəaliyyətinin təhlil edilməsi;
UK-4 – ixtisas üzrə axtarış- tədqiqat- layihə işlərinin aparılması;
UK-5 – təhsil sistemində qəbul edilən mühüm dəyişiklərn təhlil edilməsi.

**<u>İxtisas kompetensiyaları (İK):</u>**

İK-1 – Dünyada və Azərbaycanda coğrafiyanın tədrisi metodikasının inkişaf tarixini dərk edərək ölkədə aparılan islahatları əsaslandırmaq;
İK-2 – Coğrafiyanın tədrisinin pedaqoji-psixoloji əsaslarının təhlil etmək;
İK-3 – Coğrafi kurikulumunda alt standartların bilik və fəaliyyət komponentlərini idrak və fəaliyyət baxımından qruplaşdırmaq;
İK-4 – Coğrafi tədrisində əsas götürülən prinsipləri müqayisə etmək;
İK-5 – Coğrafi bilik vəbacarıqların növlərini ayırmaq və siniflər üzrə paylanmasını dəyərləndirmək;
İK-6– Coğrafiya dərslikləriniməzmun, dizayn və dil üslubu baxımından qiymətləndirmək.

**III. <u>Hədəfi:</u>**

- Coğrafiya tədrisi metodikasının bir elm kimi yaranması, inkişafı və tədqiqtat metodlarının şərh edilməsinə nail olmaq;
- Coğrafiya fənni üzrə yeni təhsil proqramı ( kurikulum) mahiyyətini dərk etmək və vahid coğrafiyanın tədris edilməsinin vacibliyini əsalandırmaq;
- Coğrafiya dərsliklərinin məzmun, dil və dizayn istiqamətləri üzrə qiymətləndirmək;
- Pedaqoji -psixoloji nəzəriyyələrin coğrafiya fənnin tətbiqində tətbiq edilməsini müzakirə etmək;
- Müəllimin tədris prosesində yeni rolunu, fasilatiya bacarığını nümayiş etdirmək.

**IV. <u>Fənn üzrə təlim nəticələri:</u>**

FTN-1 – *coğrafiya tədrisi metodikasının nəzəri əsaslarının tarixi inkişaf yolunu təhlil edir;*

FTN-2 – *coğrafiya kurikulumunun strukturunu izah edir*
FTN-3 – *məzmun standartlarının bilik və bacarıq baxımdan sistemləşdirir;*

FTN-4 – *coğrafiya tədrisində pedaqoji-psixoloji prinsiplərin həayata keçirilməsi yollarını müəyyən edir;*
FTN-5 –*coğrafiya fənni üzrə öyrənmə mühitini təşkil edə biliri;*

FTN-6 – *Ccoğrafiya fənni üzrə yeni təhsil proqramının (kurikulum) təfəkkürün inkişafında rolunu dəyərləndirir.*

**V. <u>Qiymətləndirmə metodları:</u>**

Azərbaycan Respublikası Təhsil Nazirliyinin 11.09.2008-ci il tarixli 1060 nömrəli əmri ilə təsdiq edilmiş "Kredit sistemi ilə təhsil alan tələbələrin birliyinin qiymətləndirilməsi haqqında Əsasnamə"-nin tələbləri əsas götürülür və 100 balla qiymətləndirilir. Fənnin mənimsənilmə səviyyəsini müəyyən etmək üçün qiymətləndirmə iki mərhələdə aparılır. Birinci mərhələdə mühazirədə iştirak etməsi, seminar dərslərdə və kollokvumlarda cavabına və sərbəst işləri yerinə yetirməsinə görə maksimum 50 balla qiymətləndirilir. İkinci mərhələdə tələbə İmtahanda hər biletdə 5 sual və hər bir sual maksimum 10 bal olmaqla maksimum 50 balla qiymətləndirilir. Tələbənin imtahanda topladığı bal 17-dən az olmamalıdır. Tələbənin cavabı qeyd olunan meyarlar nəzərə alınmaqla qiymətləndirilir:

- ***10 bal*** - tələbə keçilmiş materialı dərindən başa düşür, cavabı dəqiq və hərtərəflidir*;*
- ***9 bal*** - tələbə keçilmiş materialı tam başa düşür, cavabı dəqiqdir və mövzunun məzmununu aça bilir*;*
- ***8 bal*** - tələbə cavabında ümumi xarakterli bəzi qüsurlara yol verir;
- ***7 bal*** - tələbə keçilmiş materialı yaxşı başa düşür, lakin nəzəri cəhətdən bəzi məsələləri əsaslandıra bilmir;
- ***6 bal*** - tələbənin cavabı əsasən düzgündür;
- ***5 bal*** - tələbənin cavabında çatışmazlıqlar var, mövzunu tam əhatə edə bilmir**;**
- ***4 bal*** - tələbənin cavabı qismən doğrudur, lakin mövzunu izah edərkən bəzi səhvlərə yol verir;
- ***3 bal*** - tələbənin mövzudan xəbəri var, lakin fikrini əsaslandırmağı bacarmır;
- ***1-2 bal*** - tələbənin mövzudan qismən xəbəri var;
- ***0 bal*** - suala cavab yoxdur.

**VI.<u>Fənnin tədrisində istifadə olunan təlim-tədris metodları:</u>**

- Mühazirə;
- Disskusiyya
- Müzakirələr;
- Tədqiqatın aparılması;
- Təqdimatlar;
- Anket sorğu;

- ❖ Keys-stadi;
- ❖ Yaradıcılığa yönəlmiş metodlar.

Təlim-tədris prosesində metodlara uyğun **üsul və texnikalardan** istifadə edilir:

- Mühazirə – anlayışın çıxarılması, suallar, klaster, əqli hücum və s.
- Disskusiya- keys-stadi, ziqzaq, akvarium, debat və s
- Müzakirələr – klassik dialoq, dairəvi masa, çarpaz müzakirə . ardıcıl sualvermə və s.
- Tədqiqatın aparılması – Venn diaqramı, klaster, problemin həlli, layihələrin hazırlanması, qərarlar ağacı, müsahibə, sosioloji sorğu və s.
- Təqdimatlar – esse, sankveyn, təqdimat, işgüzar oyunlar, rollu oyunlar və s.

## TEMATİK PLAN

### Mühazirə - 30 saat

| № | Mövzular | Saat |
|---|---|---|
| 1 | Coğrafiyanın tədrisi metodikası bir elm kimi | 2 |
| 2 | Coğrafiya tədrisi metodikasının tədqiqat metodları. | 2 |
| 3-4. | Yeni təhsil proqramı (kurrikulum) və «Coğrafiya» fənni kurikulumu | 4 |
| 5-6. | Coğrafiya kurikulumunda alt standartların bilik və fəaliyyət baxımından təhlili | 4 |
| 7. | Kurikulumun prinsipləri və coğrafiya tədrisində tətbiqi. | 2 |
| 8- 9. | Tədris prosesinin pedaqoji-psixoloji kompitensiyaları | 4 |
| 10. | Coğrafiya fənninin tədrisində öyrənmə mühitinin təşkili | 2 |
| 11. | Tədris prosesinin əsas subyektləri | 2 |
| 12. | Coğrafi biliklərin formalaşdırılması | 2 |
| 13. | Coğrafi bacarıq və vərdişlərin formalaşdırılması | 2 |
| 14. | Coğrafiya fənni üzrə tədris ədəbiyyatı | 2 |
| 15. | Coğrafiya tədrisində istifadə olunan əyani vəsaitlər | 2 |

Məşğələ - 30 saat

| № | Mövzular | Saat |
|---|---|---|
| 1 | Coğrafiyanın tədrisi metodikası bir elm kimi | 2 |
| 2 | Coğrafiya tədrisi metodikasının tədqiqat metodları. | 2 |
| 3-4. | Yeni təhsil proqramı (kurrikulum) və «Coğrafiya» fənni kurikulumu | 4 |
| 5-6. | Coğrafiya kurikulumunda alt standartların bilik və fəaliyyət baxımından təhlili | 4 |
| 7. | Kurikulumun prinsipləri və coğrafiya tədrisində tətbiqi. | 2 |
| 8- 9. | Tədris prosesinin pedaqoji-psixoloji kompitensiyaları | 4 |
| 10. | Coğrafiya fənninin tədrisində öyrənmə mühitinin təşkili | 2 |
| 11. | Tədris prosesinin əsas subyektləri | 2 |
| 12. | Coğrafi biliklərin formalaşdırılması | 2 |
| 13. | Coğrafi bacarıq və vərdişlərin formalaşdırılması | 2 |
| 14. | Coğrafiya fənni üzrə tədris ədəbiyyatı | 2 |
| 15. | Coğrafiya tədrisində istifadə olunan əyani vəsaitlər | 2 |

## VII. Mövzuların xülasəsi.

### Mövzu 1. Coğrafiyanın tədrisi metodikası bir elm kimi

Coğrafiyanın tədrisi metodikasının nəzəri əsasları kursu nədən bəhs edir. Məktəb coğrafiyasının tədrisi kursunun məqsəd və vəzifələri və onların dəyişməsi. Coğrafiya tədrisi metodikasının pedaqoji elmlər sistemində yeri. Coğrafiyanın tədrisi metodikası cografi və pedaqoji elmlərin sintezidir. Cografiyanın tədrisi metodikasının predmeti, vəzifələri. Coğrafiya tədrisi metodikasının digər elmlər ilə əlaqəsi (coğrafiya elmləri, didaktika, psixologiya, məntiq və s.).

Dünya ölkələrinin təhsil sistemində coğrafiya tədrisi. Dünya ölkələrində məktəb coğrafiyası fənninin məzmununun tarixən dəyişməsi. Müasir dövrdə

dünya ölkələrində məktəb coğrafiyasının məzmunu. Coğrafiya müəllimlərinin hazırlanması.

*Mövzunun təlim nəticələri:*

*MTN-1 – Coğrafiyanın tədrisi metodikasının bir elm kimi yaranması mərhələlərini bilir;*

*MTN-2 – Coğrafiya tədrisi metodikasının digər elm sahələri ilə sintezinin əhəmiyyətini əsaslandırır;*

*MTN-3 –Coğrafiya müəllimlərinin hazırlanmasında yeni yanaşmanın mahiyyətini təhlil edir;*

*MTN-4 – Dünya ölkələrində məktəb coğrafiyası kursunun məzmun və quruluşunu şərh edir.*

*Qiymətləndirmə tapşırıqları:*

*1. Coğrafiyanın tədrisi metodikasının nəzəri əsasları kursu nədən bəhs edir.*
*2. Məktəb coğrafiyasının tədrisi kursunun məqsəd və vəzifələri hansılardır.*
*3. Pedaqoji elmlər sistemində coğrafiya tədrisi metodikasının hansı mövqeyə malikdir*
*4. Cografiyanın tədrisi metodikasının predmeti və vəzifələri hansılardır*
*5 Coğrafiyanın tədrisi metodikasının cografi və pedaqoji elmlərin sintezində yerləşməsinin mahiyyətini izah edin*
*6.Coğrafiya tədrisi metodikası hansı elmlər ilə əlaqəlidir*
*7. Dünya ölkələrinin təhsil sistemində coğrafiya fənni hansı məzmunda tədris olunur*
*8. Coğrafiya müəllimlərinin hazırlanmasında hansı prinsiplər gözlənilməlidir.*

**Mövzu 2. Coğrafiya tədrisi metodikasının tədqiqat metodları.**

Tədqiqat metodlarının əhəmiyyəti. Elmi tədqiqat işlərinin əhəmiyyəti. Müxtəlif tədqiqat metodları. Məktəb coğrafiyasının inkişafında tədqiqat metodlarının rolu. Nəzəri və emprik tədqiqat metodları. Coğrafiya tədrisi metodikasında nəzərə və emprik metodların tətbiq edilməsi. Metodiki tədqiqatın məntiqi quruluşu. Aparılan elmi- tədqiqatların əsas istiqamətləri

*Mövzunun təlim nəticələri:*

*MTN-1 – Coğrafiya tədrisinin tədqiqat metodlarının əhəmiyyətini izah edir;*

*MTN-2 – Nəzəri tədiqiat metodlarınin mahiyyətini izah edir;*

*MTN-3– Emprik tədqiqat metodlarını əhəmiyyətini əsaslandırır;*

*MTN-4 – Müasir dövrdə aparılan elmi tədqiqat işlərinin əsas istiqamətlərini müəyyən edir.*

*Qiymətləndirmə tapşırıqları:*

1. *Tədqiqat metodlarının mahiyyəti nədir*

2. *2. Tədqiqat metodların əhəmiyyətini izah edin*
3. *Hansı tədqiqat metodları vardır*
4. *Məntiqi tədqiqat metodları hansılardır*
5. *Emprik tədqiqat metodları hansılardır*
6. *Tədqiqat metodlarından birini tətbiq edərək hər hansı mövzunu araşdırın ( seçmə yolu ilə)*

**Mövzu 3-4 Yeni təhsil proqramı (kurrikulum) və «Coğrafiya» fənni kurikulumu**

Azərbaycan Respublikasının Təhsil Qanunu (6,11. 12, 13 -cü maddələr). Ümumtəhsil haqqında Azərbaycan Respublikasının qanunu, 9,11, 13. 21, 22, 23, 24, 27. 28-ci maddələr. Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartları. Təhsilalanlarda formalaşdırılan dəyər və səriştələri və coğrafiya fənninin tədrisində reallaşdırılma imkanları. Təhsil modelləri: xətti, spiralvari, konsentrik. Ənənəvi təhsil proqramları ilə kurikulumun müqayisəli səciyyəsi. Coğrafiya fənn proqramları. Onların tarixən dəyişməsi. Vahid coğrafiya ideyası və onun həyata keçirilməsi. Coğrafiya kurikulumunun hazırlanması. Coğrafiya fənni üzrə ümumi təlim nəticələri. Məzmun xətləri. Məzmun standartları üzrə təlim nəticələri. Siniflər üzrə təlim nəticələri. Standart anlayışı. Orta məktəb coğrafiya kursunun əsas standartları. Alt standartların funksiyası. Məzmun xətləri üzrə əsas və alt standartların paylanması. Məzmun standartlarının varisliyi. Coğrafiya kurrikulumunda inteqrasiya.

*Mövzunun təlim nəticələri:*

*MTN-1 – Azərbaycan Respublikasının Təhsil Qanununda nəzərdə tutulmuş maddələri təhlil edir;*

*MTN-2 – Təhsilalanlarda formalaşdırılan dəyər və səriştələrin əhəmiyyətini əsaslandırır;*

*MTN-3 – Coğrafiya kurikulumunu hazırlanmasında prinsipləri şərh edir;*

*MTN-4 – Məzmun standartlarının siniflər üzrə varisliyini müqayisə edir.*

*Qiymətləndirmə tapşırıqları:*

1. *Azərbaycan Respublikasının Təhsil Qanunu (6, 11. 12, 13 -cü maddələr). Ümumtəhsil haqqında Azərbaycan Respublikasının qanunu, 9,11, 13. 21, 22, 23, 24, 27. 28-ci maddələri şərh edin.*
2. *Təhsilalanlarda hansı dəyər və səriştələri formalaşdırmaq nəzərdə tutulur*
3. *Təhsil sistemində hansı modellər tətbiq edilir*
4. *Ənənəvi təhsil proqramlarının kurikulumdan fərqi nədir*
5. *Vahid coğrafiya ideyasının mahiyyəti nədir*
6. *Coğrafiya kurikulumunun strukturu necədir*
7. *Coğrafiya fənni üzrə ümumi təlim nəticələri hansılardır*
8. *Coğrafiya fənni üzrə məzmun xətləri hansılarır və mahiyyəti nədir*
9. *Məzmun standartı nədir və hansı funksiyaları həyata keçirir*

10. *Məzmun standartları ilə təlim nəticələrinin hansı əlaqələri vardır*
11. *Məzmun standartları siniflər üzrə necə dəyişir*
12. *Məzmun standartlarının yazılmasında inteqrasiya necə nəzərə alınıb*

**Mövzu 5-6. Coğrafiya kurikulumunda alt standartların bilik və fəaliyyət baxımından təhlili**

B.Blümün"İdrak taksonomiyası" və təlimdə tətbiqi. B.Blümün psixomotor və emosional -affektiv taksonomiyası və təlimdə tətbiq edilməsi. Təfəkkürün növləri ( məntiqi, tənqidi yaradıcı, abstrakt analitik və s) Bilik və onun növləri. Bilik növləri: Deklorativ biliklər. Prosedural biliklərin mahiyyəti. Kontekstual biliklərin əhəmiiyəti. Koqnitiv və metakoqnitiv biliklər. Alt standartların bilik baxımdan təhlili. Təlim nəticələrinin təhlilinə verilən tələblər. Coğrafiya fənni üzrə məzmun standartlarının bilik baxımından təhlili. Coğrafiya kurikulumunda fəaliyyət xətləri. Coğrafiya fənni üzrə fəaliyyət xətləri Fəaliyyət növləri: İdraki, emosional, psixomotor fəaliyyət növləri. B.Blüm taksonomiyasında mərhələlər üzrə fellərin qruplaşdırılması. D. Krasvolun emosional fəaliyyət taksonomiyası. K. Murun psixomotor taksonomiyası. Təlim nəticələrinin təhlilinə verilən tələblər. Coğrafiya fənni üzrə məzmun standartlarının fəaliyyət baxımından təhlili

*Mövzunun təlim nəticələri:*
MTN-1 – Təfəkkürün növlərini qruplaşdırır;
MTN-2 – Coğrafiya fənni üzrə hansı fəaliyyət xətləri olduğunu sadalayır və mahiyyətini izah edir;
MTN-3 – Biliyin növlərinə görə coğrafiyadan məzmun standartları qruplaşdırır;
MTN-4 – Fəaliyyətin növlərinə görə qruplaşdırır

*Qiymətləndirmə tapşırıqları:*
1. *B.Blümün "İdrak taksonomiyası" nın mahiyyəti nədir*
2. *Məzmun standartlarını deklorativ biliklər baxımından qruplaşdırın*
3. *Məzmun standartlarını prosedural biliklər baxımından təhlili edin*
4. *Kontekstual biliklərin əhəmiiyəti nədir*
5. *Koqnitiv və metakoqnitiv biliklərin mahiyyətini izah edin*
6. *Coğrafiya kurikulumunda hansı fəaliyyət xətləri vardır*
7. *İdraki fəaliyyətin mahiyyətini izah edin*
8. *Emosional fəaliyyətə aid olan məzmun standartlarını qruplaşdırın*
9. *Psixomotor fəaliyyətin coğrafiya fənninin tədrisində yerini izah edin*
10. *B. Blüm taksonomiyasında mərhələlər üzrə fellərin qruplaşdırın*
11. *D. Krasvolun emosional fəaliyyət taksonomiyasını izah edin*
12. *K. Murun psixomotor taksonomiyasının mahiyyətini izah edin*

13. *Təlim nəticələri nədir*

**Mövzu 7. Kurikulumun prinsipləri və coğrafiya tədrisində tətbiqi**

Prinsip nədir. Prinsiplərin tədris prosesində əhəmiyyəti. Təhsildə şagirdyönümlülük, şəxsiyyətyönümlülük, tələbyönümlülük, nəticəyönümlülük, inteqrativlik prinsipləri. Şəxsiyyətə yönəlmiş təlim prinsip, fəal idrak, inkişafedici təlim, «Qabaqlayıcı təlim», əməkdaşlıq və dialoji təlim prinsipləri və onların coğrafiya fənninin tədrisində tətbiqi. İnkişafetdirici təlimdə coğrafiya tədrisinin yeri: şagirdlərin nitq, təfəkkür, diqqət, hafizə, emosional keyfiyyətlər, iradi keyfiyyətlər, fəallıq, təşəbbüskarlıq qabiliyyətlərinin formalaşmasında coğrafiya fənninin imkanları. Coğrafiya fənninin özünəməxsus prinsipləri- qloballaşma, iqtisadi, ekoloji, peşəyönümü prinsipləri. Coğrafiya fənninin tədrisində şagirdin psixoloji inkişafının özünəməxsusluğu.

*Mövzunun təlim nəticələri:*

*MTN-1 – Tədris prosesində prinsipləri əhəmiyyətini əsasladırır;*

*MTN-2 – Şəxsiyyətyönümlü, tələbyönümlü, nəticəhönümlük prinsiplərinin təhil edir;*

*MTN-3 – İnkişafetditici təlimin mahiyyətini izah edir;*

*MTN-4 – Coğrafiya fənnin tədrisində mövcud olan prinsipləri qruplaşdırır.*

*Qiymətləndirmə tapşırıqları:*

1. *Prinsip nədir və onların tədris prosesində əhəmiyyəti nədən ibarətdir*
2. *Təhsildə şagirdyönümlülük prinsipi nəyə xidmət edir*
3. *Şəxsiyyətyönümlülüyün mahiyyətini izah edin*
4. *Tələbyönümlülük prinsipinin əhəmiyyəti nədir*
5. *Nəticəyönümlülük prinsipi təlim prosesində nəyə nail olmağa imkan verir*
6. *İnteqrativlik prinsipinin mahiyyətini izah edin*
7. *Coğrafiya fənninin tədrisində hansı özünəməxsus prinsiplər vardır*
8. *Qloballaşma prinsipinin coğrafiya fənninin tədrisində hansı imkanları vardır*
9. *İqtisadi prinsip təhsilalanlarda hansı keyfiyyətləri yaradır*
10. *Ekoloji prinsipin aktuallığını əsaslandırın*
11. *Coğrafiyanın tədrisində peşəyönümü prinsipini hansı yollarla tətbiq etmək olar*

**Mövzu 8- 9. Tədris prosesinin pedaqoji-psixoloji kompitensiyaları**

Təfəkkürün növləri. ( məntiqi, tənqidi yaradıcı, abstrakt analitik və s) Məntiqi təfəkkürün formalaşmasında induksiya, deduksiya və məntiq xətaları anlayışı.Hovard Qardnerin "Çoxnövlü zəka" nəzəriyyəsi və onun coğrafiya fənninin tədrisindəki rolu. Yan Piajenin "Zehni inkişafın mərhələləri"

nəzəriyyəsi. Coğrafiya fənninin tədrisinin idrakın inkişafın mərhələlər üzrə təhlili.. Təlim prosesinin psixoloji prinsipləri. Lev Vıqotskinin “Sosial inkişaf” və “ Yaxın inkişaf zonaları” nəzəriyyələrinin coğrafiya fənninin tədrisində rolu. Karol Dvekin “Düşüncə tərzi” nəzəriyyəsi və onun coğrafiya tədrisində rolu. İntilektin növləri ( riyaz-məntiqi, emosional, çoxnövlü) . İ.Kolberqin “Mənənəvi inkişaf” nəzəriyyəsi. Robert Qanyenin “Öyrənmənin şərtləri”nəzəriyyəsi. D.Qoulmanın “Emosional zəka” nəzəriyyəsi
Yeni coğrafi bilik və bacarıqların mənimsənilməsinin mərhələlərinin təhlili Coğrafiya tədrisində təfəkkürün inkişafının imkanları. Coğrafiya fənninin məzmununda məntiqi, tənqidi və yaradıcı təffəkkürün inkişafı üçün imkanlar. İnduksiya, deduksiya və məntiq xətalarının coğrafiya fənninin məzmununa tətbiqi. Coğrfiya fənninin məzmununda şagirdlərin tənqidi təfəkkürünün formalaşdırılması imkanları. Yaradıcı təfəkkürün coğrafiya fənninin tədrisində inkışaf etdirilməsi imkanları Coğrafiya tədrisinin pedaqoji-psixoloji əsasları

*Mövzunun təlim nəticələri:*
*MTN-1 – Təfəkkürün inkişafının təhsilalanlarda olan əhəmiyyətini izah edir;*
*MTN-2 – Pedaqoji -psixoloji kompitensiyaların həyata keçirilməsində tətbiq edilən nəzəriyyələrin mahiyyətini izah edir ( H.Qardner, J.Piaj, L.Vıqotski, K.Dvek, İ.Kolberq, D.Qoulman, )*
*MTN-3 – Təlim prosesinin psixoloji prinsiplərinin əhəmiyyətini izah edir;*
*MTN-4 – Təlim prosesində tətbiq edilən pedaqoji prinsipləri şərh edir;*

*Qiymətləndirmə tapşırıqları:*
1. *Təfəkkürün hansı növləri var*
2. *Məntiqi təvəkkürün mahiyyətini izah edin*
3. *Tənqidi təfəkkürə aid coğrafiya üzrə məzmun standartlarını təhlil edin*
4. *Yaradıcı təfəkkür nədi və əhəmiyyətini izah edin*
5. *Astrakt təfəkkür təhsilalanlarda hansı xüsusiyyətləri yaratmağa imkan verir*
6. *Analitik təfəkkür nədir*
7. Hovard Qardnerin “Çoxnövlü zəka” nəzəriyyəsi və onun coğrafiya fənninin tədrisindəki rolunu izah edin
8. Yan Piajenin “Zehni inkişafın mərhələləri” nəzəriyyəsını şərh edin
9. Lev Vıqotskinin “Sosial inkişaf” və “ Yaxın inkişaf zonaları” nəzəriyyələrinin mahiyyətini izah edin
10. Karol Dvekin “Düşüncə tərzi” nəzəriyyəsi və onun coğrafiya tədrisində rolu.
11. İ.Kolberqin “Mənənəvi inkişaf” nəzəriyyəsini təhlil edin
12. R.Qanyenin “Öyrənmənin şərtləri”nəzəriyyəsinin mahiyyətini izah edin
13. D.Qoulmanın “Emosional zəka” nəzəriyyəsini təhlil edin
14. Coğrafiya tədrisində təfəkkürün inkişafının hansı imkanları var.

**Mövzu 10. Coğrafiya fənninin tədrisində öyrənmə mühitinin təşkili**

Təlim prosesində səmərəli öyrənmə mühitinin qurulmasının tələbləri və üstünlükləri. Təhlükəsiz öyrənmə mühiti. Şagird şəxsiyyətinin inkişafı və formalaşdırılması. Sinifin idarə edilməsi. Coğrafiya fənninin tədrisində idaarəedilmənin prosedur və qaydalarının özünəməxsusluğu. Öyrənmə mühiti anlayışı. Ənənəvi təlim prosesində müəllimin informasiya, əşyavi və sosial -psixoloji mühit yaratmaq qabiliyyəti. Coğrafiyanın məzmununda informasiya mühitinin yaradılması. Əşyavi mühit və coğrafiya fənninin tədrisində mövcud olan imkanları. Müəllimin sosial -psixoloji mühit yaratmaq qabiliyyəti. Biheyvierizm – F. Skinner "Operant şərtlənmə" nəzəriyyəsi

*Mövzunun təlim nəticələri:*

*MTN-1 – Öyrənmə mühütinin yaradılmasının vacibliyini əsaslandırır;*

*MTN-2 – Sinifin idarə olunmasında informasiya, əşyavi, sosial psixoloji mühitin yaradılmasının yollarını təhlil edir;*

*MTN-3 – Biheyvierizm – F. Skinnerin öyrənmə nəzəriyyəsinin coğrafiya fənninin tədrisində tətbiq edilməsini müzakirə edir*

*MTN-4 – Şagird şəxsiyyətinin inkişafında öyrətmə mühütinin rolunu qiymətləndirir.*

*Qiymətləndirmə tapşırıqları:*

1. T*əlim prosesində səmərəli öyrənmə mühiti nədir*
2. *Təhlükəsiz öyrənmə mühitinin mahiyyətini izah edin*
3. *Sinifin idarə edilməsi üçün hansı amillər əsas şərtdir*
4. *Öyrənmə mühiti anlayışına nələr daxildir*
5. *İnformasiya mühiti üçün müəllimdən nələr tələb olunur*
6. *Əşyavi mühit yaratmağın əhəmiyyətini izah edin*
7. *Sosial -psixoloji mühit yaratmaq qabiliyyəti necə formalaşır*
8. *Biheyvierizm nəzəriyyəsinin coğrafiya fənninin tədrisində tətbiq edilməsi üçün nümumələr gətirin*
9. *"Operant şərtlənmə" nəzəriyyəsinin mahiyyətini izah edin*

**Mövzu 11. Tədris prosesinin əsas subyektləri**

Şəxsiyyətin formalaşdırılması və inkişafı və məktəb və müəllimin rolu. Ənənəvi və yeni təlim prosesində coğrafiya müəlliminin işinin müqayisəsi. Müəllimlərin etik davranış qaydaları Avtoritar, səhlənkar və demokratik müəllim fəaliyyətinin müqayisəsi. Yaradıcılıq fəliyyətinə görə müəllim işinin müqayisəsi. Fəal təlimdə müəllimin istiqamətləndirici rolu. Sinifin idarəedilməsi mexanizmləri( gözlənti, prosedur, qaydalar, müəllim-şagird arasında psixoloji münasibətlər, sinifin səmərəli idarəedilməsində strategiyalar) Coğrafiya müəlliminin fasilitatorluq qabiliyyəti. Müəllimin pedaqoji qabiliyyətləri- şəxsi qabiliyyət, didaktik qabiliyyəti, təşkilatçılq qabiliyyəti, kommunikativ

qabiliyyəti, perseptiv (şagirdin psixoloji halını görə bilmək) qabiliyyət və suqqestiv ( təqlid etmək yəni fikrini yeridə bilmək) qabiliyyət, pedaqoji təxəyyül ( yəni nəticəni görə bilmək) qabiliyyəti, pedaqoji refleksya ( öz işinə qiymət verə bilmək) aktyorluq qabiliyyəti, tədqiqatçılıq qabiliyyəti ( yəni pedaqoji prosesi düzgün araşdırmaq) , diqqəti paylamaq ( eyni vaxta özünə və şagirdlərə nəzarət etmək qabiliyyəti), akademik qabiliyyəti ( öz fənninə aid nəzəri və praktik materialları bilməsi) Effektiv müəllim-şagird, müəllim-valideyn münasibətləri ( qısnama, bulinq, mobbinq)

*Mövzunun təlim nəticələri:*

*MTN-1 – Ənənəvi və müasir təlim prosesində müəllim işinin müqayisə edir*

*MTN-2 –Avtoritar, səhlənkar, demokratik müəllimin xüsusiyyətlərini sadalayır;*

*MTN-3 – Müəllimin fasilitatorluq qabiliyyətinin formalaşdırmaq üçün tələbləri şərh edir;*

*MTN-4 – Effektiv müəllim-şagird, müəllim-valideyn münasibətlərinin təsvirini verir;*

*Qiymətləndirmə tapşırıqları:*

1. *Şəxsiyyətin formalaşdırılmasında məktəb və müəllimin rolu nədən ibarətdir*
2. *Ənənəvi təlim prosesində coğrafiya müəllimini rolu nədən ibarətdir*
3. *Yeni təlim prosesində coğrafiya müəllimi hansı xüsusiyyətləri əldə etməlidir.*
4. *Müəllimlərin etik davranış qaydalarını sadalayın*
5. *Avtoritar, səhlənkar və demokratik müəllim rolunu səhnələşdirin*
6. *Yaradıcılıq fəliyyətinə görə müəllimin hansı tipləri vardır*
7. *Sinifin idarəedilməsi mexanizmləri ( gözlənti, prosedur, qaydalar, müəllim-şagird arasında psixoloji münasibətlər, sinifin səmərəli idarəedilməsində strategiyalar) izah edin*
8. *Coğrafiya müəlliminin fasilitatorluq qabiliyyətinin inkişaf etdirmək üçün nələr tələb olunur*
9. *Perseptiv qabiliyyət nədir*
10. *Suqqestiv qabiliyyət nədir*
11. *Müəllimin akademik qabiliyyəti nədən asılıdır.*
12. *Müəllim-şagird, müəllim-valideyn münasibətlərində effektiv yanaşma nədir*
13. *Qısnama, bulinq, mobbinq terminlərini izah edin*

**Mövzu 12. Coğrafi biliklərin formalaşdırılması metodikası**

Coğrafi biliklər təlim prosesinin əsası kimi. Məktəb coğrafiyasının məzmununda coğrafi anlayışlar və onların təsnifatı. Ümumi və xüsusi coğrafi anlayışlar. Coğrafi fakt və məlumatların öyrənilməsi yolları. Məktəb coğrafiyasında səbəb-nəticə əlaqələrinin və coğrafi qanunauyğunluqların məzmunu və öyrədilməsi metodikası. Coğrafi anlayış və terminlərin, səbəb nəticə əlaqələrinin, coğrafi qanunauyğunluqların siniflər üzrə təsnifatı

<u>*Mövzunun təlim nəticələri:*</u>

*MTN-1 – Coğrafiya fənninin tədrisində anlayış və terminlərin əhəmiyyətini əsaslandırır;*

*MTN-2 –Səbəb-nəticə əlaqələrini şagirdlərin təfəkkürünün inkişaf etdirməsi üçün əsas şərt olduğunu təhlil edir;*

*MTN-3–Coğrafi qanunauyğunluqların öyrədilməsi mexanizmlərini tətbiq edir*

*MTN-4 – Siniflər üzrə anlayış, termin, səbəb-nəticə əlaqələrinin, coğrafi qanunauyğunluqları qruplaşdırır*

<u>*Qiymətləndirmə tapşırıqları:*</u>

1. *Coğrafi biliklərin hansı növləri var*
2. *Coğrafiyanın məzmununda coğrafi anlayışlar siniflər üzrə necə paylanmışıdr*
3. *Ümumi və xüsusi coğrafi anlayışları qruplaşdırın*
4. *Coğrafi fakt və məlumatların öyrənilməsində hansı hansı metodlar tətbiq edilə bilər*
5. *Coğrafiyanın məzmununda hansı səbəb- nəticə əlaqələri vardır*
6. *Siniflər üzrə səbəb-nəticə əlaqələrini qruplaşdırın*
7. *Coğrafi qanunauyğunluqların öyrədilməsinin əhəmiyyətini əsaslandırın*

**Mövzu 13. Coğrafi bacarıq və vərdişlərin formalaşdırılması**

Bacarıq və vərdişlərin təsnifatı. XXI əsrin bacarıqlarının coğrafiya fənninin tədrisndə tətbiqi: Öyrənmə 4K ( kritik düşünmə, kreativ düşünmə, kominikasiya, kooperasiya), savadlılıq ( informasiya, media, texnoloji ) və həyati bacarıqların ( çeviklik, liderlik, təşəbbüskarlıq, produktivlik, sosiallıq) formalaşdırılması. Təcrübi və intellektual bacarıqlar. Alt standartlardan təlim nəticələrinin çıxarılması Coğrafi vərdişlərin formalaşdırılması. Coğrafi təsəvvürlərin formalaşdırılması. Fərdi və umumiləşdirilmiş təsəvvürlər. Coğrafi nomenklaturanın öyrədilməsi metodikası. Mövcud problemlər və onların həlli yolları. Coğrafi xəritələr nomenklaturanın öyrədilməsində əsas mənbə kimi. Siniflər üzrə coğrafi nomenklaturanın həcminin dəyişməsi və siniflər üzrə varisliyi

<u>*Mövzunun təlim nəticələri:*</u>

*MTN-1 – Coğrafiya fənni üzrə bacarıqları 4K təsnifatına uyğun olaraq qruplaşdırır;*
*MTN-2 –Bacarıqların alt standartlarda və təlim nəticələrində ifadə olunmasını təhlil edir;*
*MTN-3 – Coğrafi təsəvvürlərin formalaşdırmaq yollarını izah edir;*
*MTN-4 – Təcrübi və intellektual bacarıqları müqayisə edir;*
*MTN-5 – Coğrafi nomenklaturanı öyrənmək yollarını tətbiq edir.*

*Qiymətləndirmə tapşırıqları:*

1. *Bacarıq və vərdişləri mnüqayisə edin*
2. *Coğrafiya fənninindən öyrənmə (4K) bacarıqları sadalayın*
3. *Savadlılıq bacarıqları coğrafiya fənninin tədrisində hansı imkanlara malikdir*
4. *Coğrafiya fənninin tədrisində həyati bacarıqları tətbiq edin*
5. *İntellektual bacarıqlar nə deməkdir*
6. *Bacarıqlar alt standartlarda necə ifadə olunur*
7. *Coğrafi vərdişlərin formalaşdırmaq üçün nümunələr yazın*
8. *Coğrafi təsəvvürün mahiyyətini izah edin*
9. *Fərdi və umumiləşdirilmiş təsəvvürlərə aid nümunələr gətirin*
10. *Coğrafi nomenklaturanın öyrədilməsində hansı metodları tətbiq etmək olar*
11. *Siniflər üzrə coğrafi nomenklaturanı qruplaşdırın*

**Mövzu 14. Coğrafiya fənni üzrə tədris ədəbiyyatı**

Ən mühüm tədris vasitələri. Dərslik. Dərsliklərin lahiyələşdirlməsi və istehsalı. Coğrafiya dərslikləri. Dərsliklərin yazılmasına verilən tələblərin dəyişməsi. Dünya dövlətlərində coğrafiya dərsliklərinin təhlili. Dərsliklərin metodoloji əsası. Dərsliklərin hazırlanması, onların tərtib edilməsinə verilən tələblər. Azərbaycan Respublikası Təhsil Nazirliyinin dərslik siyasəti. AR Təhsil Nazirliyinin 30.03.2012-ci il tarixli, 517 nömrəli əmrinə əsasən dərsliklərin qiymətləndirilməsinə verilən tələblər. Dərsliklərin qiymətləndirilməsi meyarları. Coğrafiya fənni üzrə müəllim üçün metodik vəsaitlər. Metodik vəsaitin qiymətləndirilməsinə verilən tələblər. Dərs vəsaitləri. Şagirdlər üçün iş dəftərləri. Şagird nailiyyətlərinin qiymətləndirilməsi - test kitabları.

*Mövzunun təlim nəticələri:*
*MTN-1 –Dərsliklərin hazırlanması mərhələlərini izah edir;*
*MTN-2 – Dərsliyin tərtib edilməsinə verilən tələbləri sadalayır;*
*MTN-3- Dərsliklərin qiymətləndirlməsi meyarlarını müzakirə edir;*
*MTN-4 – Dərslikləri məzmun baxımından təhlil edr.*
*MTN-5 – Coğrafiya dərsliklərini dizayn baxımından təhlil edir;*
*MTN -6- Dərslikləri dil üslubu baxımından qiymətləndirir.*

*Qiymətləndirmə tapşırıqları:*

1. *Dərslik nədir*
2. *Dərsliyin layihələşdirilməsi prosesini izah edin*
3. *Dərsliyn hazırlanmasına verilən dövlət tələblərini sadalayın*
4. *Dərsliyin qiymətləndirilməsi hansı mərhələlərdən keçir*
5. *Dərsliyin məzmun baxımından qiymətləndirilməsində hansı meyarlar vardır*
6. *Dərslikləri ( seçmə yolla) dizayn baxımından qiymətləndirin*
7. *Coğrafiya dərsliklərindən birinin ( hər hansı tədris vahidi üzrə) dil baxımından dəyərləndirin*
8. *MMV nədir*
9. *Şagird üçün iş dəftərinin əhəmiyyəti nədir*
10. *Test kitablarının fənnin tədris edilməsində rolu nədən ibarətdir*

**Mövzu 15. Coğrafiya tədrisində istifadə olunan əyani vəsaitlər**

Əyani vəsaitlər. Kurikulumun şagirdyönümlü prinsipinin həyata keçirilməsində əyani vəsaitlərin rolu. Coğrafiya fənni üzrə əyani vəsaitlərin təsnifatı və əhəmiyyəti. Təsviri, sxematik, qrafik, obrazlı vəsitlər. Coğrafiya xəritələri. Atlaslar. Qlobus.

Coğrafi alətlər və cihazlar. Dərs prosesində həcmli və natural əyani vəsaitlərdən istifadə. Təlimin texniki vəsaitlərindən istifadə olunması. Təlimin digər əyani vəsait və texniki vasitələri

*Mövzunun təlim nəticələri:*

*MTN-1 – Coğrafiya fənninin tədrisində əyani vəsaitlərinin rolunu qiymətləndirir*

*MTN-2 – Coğrafiyadan əyani vəsaitləri təsnif edir;*

*MTN-3 – Coğrafiya xəritələrinin öyrənmə bacarıqlarının formalaşmasında rolunu izah edir;*

*MTN-4 – Coğrafi cihaz və alətləri tanıyır və istifadə edilməsinin yollarını bilir.*

*Qiymətləndirmə tapşırıqları:*

1. *Əyani vəsaitlərin rolunu qiymətlənirin*
2. *Şagirdyönümlü prinsipin həyata keçirilməsində əyani vəsaitlərin rolunu izah edin*
3. *Coğrafiya fənni üzrə əyani vəsaitləri sistemləşdir*
4. *Təsviri əyani vəsaitlər hansılardır*
5. *Həcmli əyani vəsaitlər hansılardır*
6. *Natural əyani vəsaitlər hansılardır*
7. *Coğrafiya xəritələrinin əhəmiyyətini təhlil edin*
8. *Atlas və qlobusların tədris prosesində rolunu qiymətləndirin*
9. *Hansı coğrafi alətlər və cihazlar vardır*
10. *Coğrafiya fənni üzrə hər hansı əyani vəsait hazırlayın*

İSTİFADƏ EDİLƏN ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Təhsil Qanunu
2. Abbasov Ə. Təhsil islahatı və kurikulumların hazırlanması problemi. “Azərbaycan Respublikası Təhsil Problemləri İnstitunun Elmi Əsərləri” Bakı 2005 N1
3. Abbasov Ə. “Kurikulum islahatının əsas istiqamətləri” Azərbaycan məktəbi” jurnalı N4
4. Veysova Z. Fəal (interaktiv) təlim. Müəllimlər üçün vəsait. Azərbaycan Respublikası Təhsil Nazirliyi. UNİSEF
5. Süleymanova A. Təhsilin əsasları
6. İ.Həsənov, A.Rüstəmova, N.Babayeva Kurikulum, metodika, pedaqogika TAİM 2020
7. Coğrafiyanın tədrisi metodikası. N.Seyfullayeva. Ali məktəblər üçün dərslik. Bakı 2011
8. Coğrafiyanın tədrisi metodikası O.Alxasov. Ali məktəblər üçün dərslik Bakı 2016
9. Coğrafiya kurikulumu. Azərbaycan Respublikası Təhsil Nazirliyi. 2012
10. Kurikulum jurnalları 2008-2019 cu illər